# Dünyanın damı

## Romandan bir hissə



Kənan Hacı

***"Dünyanın damı" romanı Azərbaycan ədəbiyyatının unudulmuş simalarından olan Ağasəlim Fədainin həyatından bəhs edir. Ağasəlim Fədai XX əsrin əvvəllərində yaşayıb-yaradıb. Qısa ömürdə son dərəcə məhsuldar yaradıcılıq yolu keçib, eyni zamanda Azərbaycan Opera teatrında Məcnun, Kərəm və digər rolları yaradıb. Onun ecazkar səsi Hüseynqulu Sarabskinin diqqətini cəlb edib, ustad sənətkar onu Opera Teatrına dəvət edib. Ağasəlim Fədai ictimai xadim kimi də fəaliyyət göstərib. 37-ci il dalğası ağır sınaqlara çəkib. Şair həbs olunmaq təhlükəsini hiss edərək doğma vətənini tərk edib Türkəmistana üz tutub. Yolda son dərəcə qiymətli əlyazmalarını itirən şair böyük sarsıntı keçirir. Xəstəlik, vətən həsrəti onun bütün gücünü, qüvvəsini alır. On illik acı qürbət həyatından sonra yarımcan vəziyyətdə vətənə qayıdan Ağasəlim Fədai az sonra Bakıda vəfat edir. Bu əsəri onun əziz xatirəsinə həsr edirəm.***

**Dəhr bazarında sevdayi-qəmi eşq içrə kim**
**İftixar ilə verib əldən mənimtək parəsin?**
Ağasəlim Fədai

**I fəsil**

***Toy gecə yarıdan xeyli keçmiş qurtardı. Hər ikisinin gözü yuxu bişirirdi. Mağarın səs-küyü hələ də beyinlərindən çəkilib getməmişdi. Qulaqlarındakı uğultunu gecənin sakitliyi ovuda bilmirdi. Kəsmə yolla dəniz sahilinə doğru addımladılar, hardasa bir it kal səslə hürüb sükutu pozdu. Vahid damağındakı "Kazbek"i odladı, dərin qullab vurub tüstünü qaranlığa üfürdü. Uzaqdan sahilyanı kafelərin zəif işığı közərirdi.***

***Dənizdən əsən sərin meh yorğunluğu misqal-misqal canlarından çıxarmaqdaydı.***

***-Dəniz alayı şeydü e, qədeş. Adamın ruhuna sığal çəkir, can dərmanıdu, - Səyyar xırıltılı səslə dilləndi.***

-Həri. Bir dəfə kefim kök idi, Nurunun kababxanasında yeyib-içirdik. Uşaqlar xahiş elədi ki, bir-iki qəzəl de, feyziyab olaq. Başımı qaldırdım ki, Ay göyün üzündə bədirlənib. İlahi, o nə mənzərəydi! Adam lap istəyirdi dənizin üstünə düşən işıq yoluyla çıxıb üfüqəcən getsin. Gördüm suyun üzərində bir su pərisi mənə "gəl, gəl" deyir. Ömrümdə belə gözəllik görməmişdim. Mənə deyir ki, biz bir palçıqdan yoğrulmuşuq, sən mənsiz yarımçıqsan, mən olmasam, sən yaşaya bilməzsən. Day sonrası yadıma gəlmir. Bilmədim dalğa məni hansı qayaya çırpdı...

-Pay atonnan! Su pərisi səni təxribata çəkirmiş. Yaxşı ki, batmamısan, əmoğlu. Yoxsa qəzəliyyatımız yetim qalardı.

Vahid bilmədi ki, Səyyar bu sözləri ciddi deyir, ya dostuna sataşır.

-Su pərisi ancaq gecələr gözə görünür... – Vahid düşüncəli halda dilləndi.

Səyyar su pərisini axtarırmış kimi nəzərlərini dənizin səthi boyu gəzdirdi. Ay yenə suyun üzərinə qızılı xalçasını sərmişdi. Sanki su pərisi üfüqdən çıxaraq bu xalçanın üstüylə gəlib sahilə çıxacaqdı.

Nurunun köhnə "Moskviç"i kababxananın böyründə idi. Maşının arxa qapıları açıq idi, kiminsə ayaqları çölə çıxmışdı.

Vahidin sinəsi xışıldadı və ardınca uzun bir öskürək sısqa bədənini silkələdi. Maşında yatan adam səsə başını qaldırdı. Bobik əvvəlcə hirsli-hirsli hürdü, gələnlərə yaxınlaşınca quyruğunu bulamağa başladı. İt müştəriləri tanımışdı. Nuru cəld maşının içindən çıxıb qonaqların qabağına yüyürdü:

-Ay xoş gəlmisiz. Vahid əmoğlu, deyəsən toydan gəlirsiz.

-Həri. Bu vaxt hardan gəliceyəm? Səyyarı da avara eləyib gətirmişəm. Yaxşı çayın olar bəlkə, - Vahid yorğun-yorğun dilləndi.

-Gəlin əyləşin bu besedkada. Hava da sərindir. Sizə qəşəng xoruzquyruğu bir çay dəmləyim. Samovar çayı yorğunluğunuzu çıxaracaq.

Vahid çevrilib Səyyara baxdı:

-Hə, qədeş, samovar çayıyla aron necədü?

-Əla! – Səyyar sevincək dilləndi.

-Alə, Ağoppa! Dur ayağa! Vahidgil gəlib. Gəl tez samovarı odda, -Nuru yarıyacan quruya dartılmış qayığın içində şirin yuxuya dalmış yeniyetməni səslədi.

***Ağoppa yerindən dik atıldı, yaxınlaşıb ədəb-ərkanla Vahidlə Səyyarı salamladı və işə başladı. O qədər arıq idi ki, qabırğalarını saymaq olardı. Gün bədənini yandırmışdı, dərisi mis rəngindəydi. Şalvarının balaqlarını dizəcən çirməmiş bu diribaş oğlan günün iyirmi dörd saatını bu kababxanada olurdu, gələn qonaqlara qulluq edir, samovar qaynadır, təmizlik işlərinə də baxırdı. Nuru deyirdi ki, Ağoppa olmasa, batarıq. Hər yay mövsümü gələndə Nuru "Moskviç"ini Qızılquma sürürdü, Ağoppanı axtarıb tapırdı və özüylə kababxanaya gətirirdi. Ağoppa bir də evlərinə sentyabrın axırlarında gedirdi.***

Vahid Ağoppanın canıyananlığını bu sözlərlə qiymətləndirdi:

-Allah saxlasın! Çox diribaş uşaqdır, özü də böyük-kiçik yeri biləndür.

Sonra yadına nə düşdüsə, yenə üzünü Səyyara tutdu:

-Səyyar, sənin yadında olar. Kimsə bu dənizə bir meyxana qoşmuşdu.

-Hansını deyirsən? – Səyyar fikirli-fikirli dilləndi.

Vahid meyxanadan bir bənd dedi:

Tanrına qurban, a qızıl qum dəniz,
Kasıb lüt-üryanlara qəyyum dəniz,
Sən ki, bizi bu davadan çıxartdın,
Səndə ölüm, sən gözümü yum, dəniz.

-Nə qəşəng deyib! Bunu eşitməmişdim, əmoğlu, - Səyyar dedi.

Nurunun diqqəti onlardaydı. Tez reaksiya verdi:

-Vahid qədeş, bunu bizim kəntdimiz deyib. Bax, elə burda xalça-palazın üstündə oturub diyiblər. O vaxt müharibə təzə qurtarmışdı. Kəndin cavanları gələrdilər, bu qumun üstündə dövrə vurub oturardılar, başlayardılar meyxana deməyə. Həmin oğlanın adı Cavid idi. İşə bax ki, sonradan özü yazıq elə dənizdə batdı.

Vahid çevrilib qəzəblə dənizə baxdı.

-Heyif... Talantlı uşaq imiş. O sözləri ona dedirdən ilahi qüvvə varmış. Taleyini ona pıçıldayıbmış. Allah rəhmət eləsin. Hələ birdən yadıma düşdü.

Nuru ortaya nərdtaxta gətirdi. Vahid nərdtaxtanı kənara itələdi:

-Hara getsəm, yenə kölgəm kimidü nərd,
Bəxtin zəri şeş verməsə, dövran heçdir.

Gözlədilər, Vahid qəzəlin ardını gətirmədi.

-Yorğunam, qədeş. Bunu yığışdır. Çaymızı gətir, - dedi.

Ağoppa Vahidi, Səyyarı görüb sevinirdi, bu əldən zirək oğlan samovarı beşcə dəqiqənin içində qaladı. Az keçməmiş samovarın dızıltısı eşidildi. Vahid tüstü-dumanın içində itib-batmışdı. Xəyalı hələ də su pərisinin yanında idi.

-Vahid qədeş, deyəsən toydan gəlirsüz.

Nurunun səsi onu fikirdən ayırdı.

-Həri. Sıxıb suyumuzu çıxartdılar. Bu camaat meyxanadan doymur də. Arada qəzəllərimdən də deyirdim. Görürəm xoşlarına gəlir. "Vahid qədeş, birin də de, birin də de" deyib məni əməlli-başlı yordular.

-Əybi yox, indi qəşəng xoruzquyruğu çay dəmliyərəm sizinçün, bütün yorğunluğuvuz gedər işinin dalıycan, - Nuru dəm çaynikinə kəklikotu atdı.

***Qəfildən gecənin qaranlığında havada ağappaq bir kağız yellənməyə başladı. Sanki qağayı idi, sahilə doğru aramla süzürdü. Gecənin bu aləmi qağayı nə gəzirdi. Ətrafa boylandılar. Üst-başı tökülmüş, saç-saqqal içində itib-batmış bir kişi sərin mehin havada oynatdığı kağızın ardınca qaçırdı. Hər dəfə əlini atanda kağız uzaqlaşırdı. Adam divanəyə bənzəyirdi. Qoltuğundakı qalın qovluğu sinəsinə sıxıb o bircə kağızın ardınca yüyürürdü. Nuru Ağoppanı səslədi:***

-Adə, Ağoppa, qaç o kağızı tut, ver kişiyə.

Ağoppa kağızı göydə qamarladı.

-Vahid qədeş, bu kişini tanıyırsan? – Nuru kədərlə dilləndi.

-Yox, birinci dəfədir görürəm, amma nəzərimə qərib gəlir, - Vahid siqaretin kötüyünü dişləri arasında sıxdı.

-Ağasəlim Fədaidir. Gözəl şair idi. Dediyinə görə bütün əlyazmalarını vaqonda oğurlayıblar, o vaxtdan dəli kimi gəzir. Adamın ürəyi ağrıyır.

Həsən Səyyar diksindi:

-Ağasəlim Fədai? Yoox, ola bilməz! Bu kişi Ağasəlim ola bilməz. Onun qəddi-qaməti uzaqdan adamı cəlb edirdi. Bunun qəddi büküllüb, o deyil.

-Alə, dayan görüm, bu buzovnalı Ağasəlim döyül? Mən onu axırıncı dəfə bilirsən haçan görmüşəm? Eeeh, otuz il bundan qabaq. Onda cavan uşaq idik, Məşədi Azərin yanına gəlib-gedərdik. Ağasəlim o vaxt təzə-təzə yazmağa başlamışdı. Sonra dedilər Operada işləyir. Day sonra noldu, xəbərim olmadı, - Vahid dedi.

-Həri, Vahid qədeş, Operada Məcnunu, Kərəmi oynayıb. 37-ci ildə onu buralardan didərgin saldılar. Tutulacağından qorxub Türkmənistana qaçdı. Neçə illər idi Aşqabadda yaşayırdı. Elə qatarla gedəndə necə olubsa, əlyazmaları it-bata düşüb. Orda da günü yaxşı keçməyib. İndi xəstədir, canıyla əlləşir.



Nuru divanəyə bənzəyən kişini səslədi:

-Ağasəlim, gəl bir az dincini al, yaxşı çay dəmləmişəm.

***Ağasəlim Ağoppanın küləyin əlindən aldığı kağızı ehtiyatla qovluğun içinə qoyub ağzını düyünlədi və onlara yaxınlaşdı. Vahidlə Səyyar ayağa qalxdılar. Ağasəlim onlarla üzbəüz qalınca duruxdu. Bir müddət baxışdılar və qəfildən həyəcanlı səs gecənin qaranlığında burulub sahilə yayıldı:***

***-Vahiiid!!!***

***Qucaqlaşdılar.***

***-Sən ki, məni tanıdun, halaldu sənə! Özüvü niyə bu günə qoymusan, ay Ağasəlim? Nuru deməsəydi, səni tanımıyceydim.***

**(ardı gələn sayımızda)**